# BAKI DÖVLƏT UNİVERSİTETİ

## İnformasiya Texnologiyaları Mərkəzinin
## 2021-ci il üçün

# FƏALİYYƏTİ

- **İnformasiya Texnologiyaları Mərkəzinin kadr tərkibi və fəaliyyətinin təşkili**

Mərkəz 2021-ci təqvim ilində 4 şöbədə 36 nəfər əməkdaşla fəaliyyət göstərmişdir.

Ümumilikdə texniki və proqram təminati şöbəsinin 14 əməkdaşı müntəzəm olaraq fakültələrdə fəaliyyət göstərən kompüter siniflərinə (182 kompüter) nəzarət edir.

Zəruri hallarda əməkdaşlar ümumuniversitet tədbirlərinin, o cümlədən Respublika və Beynəlxalq səviyyəli konfrans və ya seminarların, Yubiley və Dövlət əhəmiyyətli tədbirlərin, Qiyabi və əlavə təhsil alan tələbələrin semestr imtahanlarının təşkili, Yeni innovasiyaların tətbiqi ilə əlaqədar maarifləndirmə işlərində texniki məsələlərin həllinə cəlb olunur.

- **Görülən işlər**

1. Mərkəzin əməkdaşları universitetdə 2021-ci ildə də davam etdirilən təftiş və inventarlaşdırma işlərində iştirak etmişlər;
2. Universitet üzrə istifadə olunan kompüter sistemlərinin və digər informasiya texnologiyaları avadanlıqlarının inventarlaşdırılması aparılmış, istifadə müddəti bitmiş avadanlıqlara texniki baxış keçirilmişdir;
4. BDU-nun giriş qapılarında turniket sisteminin quraşdırılması üçün optik xətlərin layihələndirilməsi aparılmış və universitet şəbəkəsinə inteqrasiya edilmişdir;
3. Pandemiya şəraitilə əlaqədar olaraq hibrid formada keçirilən dissertasiya müdafiələrinin təşkilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı texniki məsələlərin həlli həyata keçirilmişdir;
5. Kimya fakültəsinin Beynəlxalq akkreditasiyasının keçirilməsi ilə bağlı texniki məsələlərin (*prosesin MS Teams platforması üzərindən təşkili*, *tədbir zallarının lokal şəbəkə və simsiz* (*Wi-Fi*) *internetlə fasiləsiz təminatı*) həlli həyata keçirilmişdir;
6. Aşağıda adları qeyd edilən konfransların keçirilməsi ilə bağlı texniki məsələlərin (*konfransın MS Teams platforması üzərindən təşkili, tədbir zallarının lokal şəbəkə və simsiz (Wi-Fi) internetlə fasiləsiz təminatı*) həlli həyata keçirilmişdir:
   1) 1st International LOTFI A. ZADEH conference: Fuzzy Logic and Applications;
   2) 7th International conference MTP-2021: Modern Trends in Physics;
   3) The Great Azerbaijan Poet NIZAMI GANJAVI and Eastern-western Literary-cultural Heritage;
   4) XXI Century, new calls and modern development trends of law.

**İnformasiya Texnologiyaları**
**Mərkəzinin direktoru:** **Rafail Rüstəmov**